10

2023

ISSN 0207-4710

# GÖYƏRÇİN



# AT VƏ AYI

*(Litviya xalq nağılı)*

Bir kəndlinin qoca bir atı var idi. O, atın dörd ayağını da nallayıb, meşəyə apardı. Yazıq heyvanı orada qoyub evə qayıtdı. Meşədə tək qalan qoca at ora-bura gəzir, otlayırdı. Elə bu vaxt onun qarşısına bir ayı çıxdı. At qorxdu, ac ayı isə sevinə sevinə dedi:

-Nə yaxşı oldu. Acından ölürəm, indi mən səni yeyəcəm.

-Sən məni necə yeyəcəksən? Axı mən çox qocayam! - At yazıq-yazıq Ayıya baxdı.

-Sən heç narahat olma. Mənim çox iti dişlərim var, bir təhər yeyərəm.

At özünü sındırmadı:

-Madam ki, belə oldu, gedək o qayanın yanına. Kim daşa ayağını çırpıb od çıxara bilsə, yemək haqqı onundu.

Ayı razılaşdı. Onlar birlikdə qayanın yanına getdilər. At Ayıya dedi:

-Hə, növbə sənindi. Gücünü sına.

Ayı gücü gəldikcə daşa nə qədər təpik vursa da, bir şey alınmadı. At ona dedi ki, icazə ver, indi də mən özümü sınayım.

At nallı ayaqlarını qayaya çırpan kimi qığılcım yarandı. Bunu görən Ayı bərk qorxdu və qaçmağa başladı.

Bunu görən At qışqırdı:

-Ey, hara qaçırsan? Dayan, indi mən səni yeyəcəm.

Ayı gücü gəldikcə qaçıb ondan uzaqlaşdı. Qarşısına bir canavar çıxdı. Ayının titrədiyini görən Canavar təəccüblə soruşdu:

-Sən niyə belə qorxursan?

Ayı kəkələyə-kəkələyə dedi:

-Meşəyə bir heyvan gəlib. Az qala məni yemişdi. Güclə qaçıb canımı qurtarmışam ondan.

-Axı o necə heyvandı?

-Quyruğu upuzundur. Boynundan da uzun tüklər sallanır.

Canavar güldü:

-Sən lap axmaq imişsən ki! Sənin gördüyün heyvan atdır. Dadlı əti var. Məni onun yanına apar, parçalayıb yeyim.

Onlar bir-birinə qoşulub bir az getmişdilər ki, Ayı vahimə içində dedi:

-Gəl qaçaq, bizə sarı gəlir.

-Hanı, mən görmürəm axı, - Canavar dedi.

Ayı Canavarın boynundan yapışıb yuxarı qaldırdı və soruşdu:

-İndi görürsənmi?

-Yox.

Ayı Canavarı bir az da yuxarı qaldırıb soruşdu:

-Bəs indi?

-Yox, indi də görmürəm.

Ayı Canavarın boynunu bir az da bərk sıxdı və onu gücü gəldikcə yuxarı qaldırıb hirslə soruşdu:

-Bəs indi necə?

Boynu Ayının pəncəsində sıxılan Canavar nəinki cavab verə, heç nəfəs də ala bilmirdi.

Ayı Canavarın boynunu bir az da bərk sıxıb yerə tulladı və qəzəblə qışqırdı:

-Axmağın biri axmaq. Görmürsən, cəhənnəmə gör!

Canavar yerdə can verdi, Ayı isə gücü gəldikcə qaçıb getdi.

Ayıdan və Canavardan canı qurtaran At isə arxayın-arxayın meşədə gəzir, çəməndə otlayırdı...

**Tərcümə edib uşaqlar üçün işləyən: R.Y.Əliyev**

